**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/12** **30 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin tərkibində dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri – Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin sabiq rəisi Qoşqar İlkin oğlu Əhmədovun həqiqi hərbi xidmətdə olması ilə əlaqədar həmin komitənin tərkibində dəyişiklik edilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Qoşqar İlkin oğlu Əhmədov Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/2 nömrəli qərarı ilə yaradılmış Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri vəzifəsindən çıxarılsın.
2. Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Barat Siyavuş oğlu Orucov Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin tərkibinə daxil edilsin və həmin komitənin sədri təyin edilsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin üzvlərinə təqdim edilməsi və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**